Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2004-cü il 30 sentyabr tarixli 147 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Ov etmək üçün icazənin verilməsi**
**Q A Y D A S I**

## I. ÜMUMİ MÜDDƏALAR

1.1.Bu qayda "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 may tarixli 69 nömrəli Fərmanına əsasən hazırlanmışdır və ov etmək üçün icazənin verilməsi (bundan sonra - icazə) qaydasını müəyyən edir.

1.2.Azərbaycan Respublikasının ərazisində ova icazə hər il Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ov mövsümünün açılmasına və vəhşi heyvan və quşların ov müddəti, ov normalan və ov yerləri barədə verdiyi qərarı (əmri) əsasında həyata keçirilir.

1.3.İcazə ov mövsümündə həvəskar və idman ovunu həyata keçirmək üçün fiziki və hüquqi şəxslərə (bundan sonra - ərizəçilər) Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq orqanı tərəfindən verilən hüquqi sənəddir və ov obyektlərinin hər növünə ayrıca verilir.

1.4.Ov obyektinə aid edilmiş vəhşi heyvanları yetişdirib ov yerlərinə buraxan təsərrüfat subyektləri Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada ov etmək üçün icazə verə bilər.

1.5.İcazənin nümunələri Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilir.

1.6.Ərizəçilərə verilən ov etmək üçün icazədən yalnız onların özləri istifadə edə bilər və icazə verildiyi müddət üçün etibarlıdır.

1.7.İcazənin verilməsi ödənişlidir və onun verilməsi üçün dövlət rüsumunun məbləği "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

1.8.İcazədən istifadə edilmədikdə, onun dəyəri ödənilmir və geri qaytarılmır.

## II. İCAZƏNİN VERİLMƏSİ

2.1.Ovçu tərəfindən ovçuluq bileti və üzvlük bileti təqdim edildikdə, ovçuluq fəaliyyətinə icazə verilir.

2.2.Ovçu üzvü olduğu ovçuluq cəmiyyətinə məxsus təsərrüfatlardan kənar ov təsərrüfatlarında ov etmək istədiyi təqdirdə, ona icazə ərizə əsasında verilir.

2.3.Ərizədə aşağıdakılar öz əksini tapmalıdır:

adı, soyadı, atasının adı, şəxsiyyət vəsiqəsinə dair məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvan);

ovçuluq və üzvlük biletinin nömrəsi;

ovun vaxtı;

ovlama yeri;

ov obyektinin növü;

ov silahının (odlu və ya soyuq) istifadəsinə dair Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq orqanları tərəfindən verilən xüsusi icazə.

2.4.İcazə almaq üçün təqdim olunan ərizə xüsusi kitabda qeydə alınmaqla qəbul edilir, baxılır, imtina üçün əsas olmadıqda, 5 (beş) gün müddətində icazənin verilməsi təmin olunur.

Bu qaydada göstərilən əsaslarla icazənin verilməsindən imtina edildikdə, bu barədə ərizəçiyə imtinanın əsasları göstərilməklə yazılı məlumat verilir.

2.5.İcazənin verilməsindən aşağıdakı hallarda imtina edilir:

2.5.1.ərizəçinin təqdim etdiyi ərizədə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;

2.5.2.ov silahından istifadəyə dair verilən xüsusi icazənin müddəti bitdikdə;

2.5.3.qanunvericilikdə nəzərdə tutulan digər hallarda.

## III. İCAZƏ

İcazədə aşağıdakılar göstərilir:

ov obyektinin növü;

ov obyektinin ovlama üsulu və yeri;

ov obyektinin norması (sayı);

ovun vaxtı;

icazənin müddəti və şərtləri.